

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 dekabr 2024-cü il №97 (2908) https://mod.gov.az Qiymәti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Biz tarixi ədaləti, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik və bununla qürur duyuruq




*Dekabrın 24-də 2024-cü ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz idmançılar, əziz dostlar.

İlk növbədə, Azərbaycan idmançılarını bu il əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. 2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olmuşdur. Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır. Bu, onu göstərir ki, idmanımız inkişaf edir, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir.

Əlbəttə ki, ilin ən böyük yarışı Yay Olimpiya Oyunları idi və burada da biz tarixi nəticə əldə etmişik. Azərbaycan müstəqil ölkə kimi 1996-cı ildən Olimpiya Oyunlarında iştirak edir və bu dəfə ən yüksək yerə layiq görülmüşdür, komanda hesabında Azərbaycan 30-cu yerdə qərarlaşmışdır. Bu, ən yüksək nəticədir. Bütövlükdə iki yüzdən çox milli komanda Olimpiya Oyunlarında iştirak edirdi. Onların arasında 30-cu olmaq çox böyük nailiyyətdir.

Onu da deməliyəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə idi. Nəzərə alsaq ki, dünyada 60-a yaxın müsəlman ölkəsi var, bu da böyük və tarixi nailiyyətdir. Komandamız ikisi qızıl, ikisi gümüş, üçü bürünc olmaqla yeddi medal qazanaraq ölkəmizin idman şöhrətini bir daha yüksəklərə qaldırmışdır.

Təbii ki, bu gözəl nəticədən sonra növbəti yarışlarda da idmançılarımızdan qələbələr, uğurlar gözləyirik. İdmançılarımız Azərbaycan xalqını öz qələbələri ilə daim sevindirirlər. Əlbəttə ki, gələn il və ondan sonrakı illərdə idmanın inkişafı üçün nə lazımdırsa, o da ediləcək. Çünki Azərbaycan dövlətinin siyasəti bu istiqamətdə çox açıqdır, birmənalıdır və uzun illər ərzində aparılır.

İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmanın və idman qələbələrinin ictimai məkanda çox böyük rolu var. Xüsusilə gənc nəslin yetişdirilməsi, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması üçün idman amili çox böyük məna daşıyır. Nəzərə alsaq ki, bu Yay Olimpiya Oyunlarında Azərbaycan müzəffər ölkə kimi, qalib ölkə kimi iştirak edirdi, idmançılarımız isə müzəffər xalqın nümayəndələri kimi iştirak edirdilər. Əlbəttə ki, bu vətənpərvərlik amili daim diqqətdə olmalıdır.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman nə qədər vacibdirsə, bir o qədər də hərbi hazırlıq və fiziki hazırlıq vacibdir. Fiziki güc mənəvi saflığa da yol açır və şadam ki, bizim idmançılarımızın mütləq əksəriyyəti idmanda da, məişətdə də, cəmiyyətdə də nümunədirlər, örnəkdirlər. Onların davranışı, cəmiyyətdəki fəaliyyəti məni və əminəm ki, bütün xalqımızı sevindirir. Azərbaycan gənci məhz belə olmalıdır - vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən saf, öz xalqına, dövlətinə bağlı, heç bir kənar təsirə boyun əyməyən və ləyaqətli Azərbaycan gənci. Yenə də deyirəm, əlbəttə ki, 1996-cı ildən bu yana bütün Olimpiya Oyunlarında iştirakımız, o cümlədən bu məqsədi daşıyırdı. Biz özümüzə də, dünyaya da sübut etməli idik və edirdik ki, biz güclü dövlətik. Hər dövlətin gücü isə onun xalqının gücünə söykənir.

Əminəm ki, bu dəfə idmançılarımız qalib ölkənin nümayəndələri kimi idman arenalarına, döşəklərə, idman meydançalarına tamamilə fərqli bir ovqatla çıxırdılar. Bu gözəl nəticə dövlətimizin gücünü bir daha göstərdi.

Bizim bundan sonrakı fəaliyyətimiz təbii ki, idmanın inkişafı ilə bağlı olacaq. Çünki bütün lazımi qərarlar verilib, bütün müvafiq strukturlar, federasiyalar, klublar, idman cəmiyyətləri, Olimpiya Komitəsi, nazirlik vahid strategiya əsasında fəaliyyət göstərirlər. Federasiyalarda gücləndirmə işləri aparılmışdır. Ümid edirəm ki, bizim həm ənənəvi medal gətirən idman növlərində, həm də bu günə qədər o qədər də inkişaf etməyən idman növlərində növbəti irəliləyiş olacaqdır. Uzun illər bütün bölgələrdə idmanla məşğul olmaq üçün dövlət öz fəaliyyətini aparıb. Hazırda bizim bölgələrimizdə 44 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir və bu idman komplekslərinin bundan sonra da inşası nəzərdə tutulur. Müxtəlif bölgələrdə, o cümlədən Qarabağ bölgəsində, Bakı şəhərində ən müasir idman infrastrukturumuz vardır. Biz hələ təxminən 10 il bundan əvvəl Bakıda mötəbər Avropa Oyunlarını keçirmişdik. Ondan sonra İslam Həmrəylik Oyunlarını keçirmişdik və keçən ay Bakıda COP29 beynəlxalq iqlim konfransı da Olimpiya Stadionunun içində və onun ətrafında keçirilmişdir. Yəni, burada da vaxtilə inşa etdiyimiz idman obyektinin - Olimpiya Stadionunun böyük rolu olmuşdu. Çünki əgər vaxtilə biz bunu etməsəydik, bu boyda, bu miqyasda beynəlxalq tədbiri keçirə bilməzdik - 197 ölkə, 76 min qeydiyyatdan keçmiş iştirakçı təmsil olunurdu və qonaqların məmnunluğu xüsusi qeyd edilirdi. Cəmi 10 şikayət var idi, onlar da tezliklə öz həllini tapdı.

Bölgələrdə isə dediyim kimi, bundan sonra da bu işlər aparılacaq. O ki qaldı, azad edilmiş ərazilərə, siz yaxşı bilirsiniz ki, o ərazilərdə infrastruktur layihələri ilə yanaşı, keçmiş köçkünlərin yaşayışı üçün inşa edilən evlərlə yanaşı, idman infrastrukturu da yaradılır. Bəziləri hesab edə bilər ki, bu, bir az tezdir. Amma mən hesab edirəm ki, bu, mütləq olmalıdır. Çünki bu idman obyektlərinin həm rəmzi mənası, həm də funksional tərəfi var. Məsələn, İmarət stadionunun inşa edilməsi - bunun çox böyük rəmzi mənası var. İndi Ağdam şəhərində yeni, bütün beynəlxalq standartlara cavab verən stadion inşa edilir. Füzuli şəhərində Olimpiya İdman Kompleksinin təməli qoyulub.

**(Ardı 2-ci səhifədə)**

## Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü münasibətilə sosial media hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "24.12.2024. Doğum gününüz mübarək, cənab Prezident! Uca Allah Sizi və Azərbaycan xalqını qorusun!".

## Ərdoğan: Azərbaycanın D-8 sıralarına daxil olması təşkilatın mövqelərini gücləndirdi

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın "İslam Səkkizliyi" təşkilatına (D-8) qoşulması qərarını alqışlayıb.

AZƏRTAC xəbər verir ki, Türkiyənin dövlət başçısı Ankarada Türkiyə hökumətinin Qahirəyə səfərinin yekunlarını şərh edib.

"Qardaş Azərbaycanın D-8 sıralarına daxil olması təşkilatın mövqeyini gücləndirib", - deyə Ərdoğan bildirib.

Türkiyə Prezidenti, həmçinin Misirlə qarşılıqlı fəaliyyətin bir çox sahələrinə, o cümlədən ticarət-iqtisadi əlaqələrə müsbət təsir göstərən "səmimi dialoqun inkişafından" məmnunluğunu ifadə edib.

Suriyadakı vəziyyətə toxunan Türkiyə Prezidenti bildirib ki, bu ölkədəki sabitlik bütün regionda təhlükəsizliyə təsir edir.

Ərdoğan ərəb ölkələrini və bütün İslam dünyasını "Suriyanın yenidən qurulmasına kömək etmək üçün Suriya xalqı ilə çiyin-çiyinə durmağa" çağırıb.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz tarixi ədaləti, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik və bununla qürur duyuruq



(Əvvəli 1-ci səhifədə)

Suqovuşan və Köndələnçay su anbarlarında artıq beynəlxalq avarçəkmə yarışları keçirilir. Şuşa şəhərində bir neçə idman yarışı keçirilmişdir. Xankəndi şəhərindəki stadion, - hansı ki, Azərbaycan büdcəsi hesabına hələ keçən əsrin 50-ci illərində inşa edilmişdir, - əsaslı şəkildə təmir edilir, demək olar ki, yenidən qurulur. Düz bir il bundan əvvəl Xankəndi stadionunda biz hamımız tarixi futbol yarışını izləmişik. Amma bu stadion da bütün beynəlxalq standartlara cavab verəcək və bu stadionun yenidən qurulması prosesi gələn il başa çatmalıdır. Azad edilmiş ərazilərimizdə digər idman qurğularının tikintisi nəzərdə tutulur və bütün bu işləri biz ardıcıllıqla edəcəyik.

Gələn il Azərbaycan növbəti böyük idman yarışına ev sahibliyi edəcək, bu da MDB Oyunlarıdır. Üçüncü MDB Oyunları Azərbaycanda keçiriləcək. Bunun üçün 14 şəhər seçilibdir və əsas oyunlar Gəncə şəhərində keçiriləcək. Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq. Gəncədə yeni stadion inşa edilir və Oyunlara qədər istismara verilməlidir. Eyni zamanda, bir neçə ay bundan əvvəl Gəncədə ölkəmizin böyük Olimpiya İdman Kompleksi açılmışdır. Hətta Bakı şəhərində bu boyda və bu qədər funksional standartlara cavab verən Olimpiya Kompleksi olmamışdır. Üçüncü MDB Oyunlarında 7 min idmançının iştirakı gözlənilir. Əgər biz 2015-ci ilin Avropa Oyunları ilə müqayisə etsək, o vaxt təqribən 5000-5500 iştirakçı var idi.

Gəncə şəhərində isə 7000 iştirakçını, onların komandalarını, heyətlərini qəbul etmək üçün, əlbəttə ki, şərait yaradılmalıdır və müvafiq göstərişlər verildi. Gələn ildən başlayaraq Gəncə şəhərində çox böyük təmir-bərpa işləri aparılacaq. Həm şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin. Əlbəttə ki, biz təbii olaraq bu Oyunlara da hazırlaşırıq. Əminəm ki, bu Oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər.

Biz ilin sonunda, ya da ki, hər ilin əvvəlində ənənəvi olaraq idmançılarımızı təltif edirik - dövlət təltifləri ilə, mənzillərlə. Bu proses artıq 27 ildir ki, davam edir. Çünki mən Milli Olimpiya Komitəsinin Prezidenti vəzifəsinə seçiləndən sonra çox yaxşı görürdüm ki, əgər idmançılara dövlət qayğısı göstərilməsə, idman inkişaf edə bilməz və idmanın inkişafının bir çox amilləri Azərbaycanda vəhdət təşkil edir, ilk növbədə, dövlət dəstəyi. Bütün təltiflər tamamilə əsaslıdır. Həm idmançılar, həm də idman ictimaiyyətinin nümayəndələri, eyni zamanda, məşqçilər və digər idman mütəxəssisləri dövlət tərəfindən layiqincə qiymətləndirilir və bu da ədalətlidir.

Hər yerdə ədalət olmalıdır - beynəlxalq münasibətlərdə, ailədə, hər bir ölkədə, hər bir cəmiyyətdə. Biz buna çalışırıq. Biz tarixi ədaləti, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik və bununla qürur duyuruq. Əminəm ki, bu şanlı Qələbəmiz hər bir Azərbaycan gənci üçün əlavə ruhlandırma amili olacaq. Biz döyüş meydanındakı Zəfərimizə idman qələbələrini də əlavə etdik və bu, əlbəttə ki, ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır. Çünki idmanın inkişafı hər bir ölkənin ümumi inkişafının nümayişidir, onu əks etdirir. Azərbaycan güclü dövlətdir, öz gücünə əsaslanan, öz yolu ilə gedən, heç kimin qarşısında heç bir öhdəliyi olmayan, heç kimin qabağında baş əyməyən, ləyaqətlə, vicdanla irəliyə gedən bir ölkədir və bu, bizim böyük sərvətimizdir.

Bu gün dünyada gedən proseslər göz qabağındadır. Qanlı toqquşmalar, müharibələr, münaqişələr, bəzi ölkələrin digər ölkələrin işlərinə kobudcasına qarışması, vəziyyətin gərginləşməsi - bütün bunları biz Azərbaycanda görmürük və görməyəcəyik. Çünki xalq-iqtidar birliyi, cəmiyyətdəki həmrəylik, vahid siyasi baxışlarımız, təbii ki, bizim tarixi Zəferimiz və bir çox digər amillər bizi bu çətinliklərdən, çağırışlardan sığortalayır. Artıq 30 ilə yaxındır ki, Azərbaycan sabitlik şəraitində yaşayır və əminəm ki, bundan sonra əbədi sabitlik şəraitində yaşayacaq.

O ki qaldı, Qarabağ və Şərqi Zəngəzur bölgələrinə, mən bilirəm ki, bizim idmançılarımız müntəzəm olaraq o bölgələrə səfərlər edirlər. Artıq orada 10 min insan yerləşib. Onların böyük hissəsi uşaqlardır, gənclərdir. O yerləri heç vaxt görməyən uşaqlar, gənclər böyük həvəslə oraya qayıdırlar. Əlbəttə ki, Azərbaycanın görkəmli idmançılarının azad edilmiş torpaqlara müntəzəm səfərləri gənclər üçün də, uşaqlar üçün də böyük hadisə olacaq. Ona görə hesab edirəm ki, idman yarışları öz yerində, amma, eyni zamanda,



indi müxtəlif tədbirlər çərçivəsində Azərbaycan idmançıları, cəmiyyətimizin digər tanınmış simaları, ziyalılar o bölgələrə nə qədər çox səfər etsələr, o qədər də yaxşı olacaq, həm onlar üçün, həm orada yaşayanlar üçün. Çünki orada həyat yenidən, sıfırdan qurulur. Bizim icra etdiyimiz layihələrin dünyada misli-bərabəri yoxdur və bəlkə də olmayacaq. Böyük coğrafiyada, 15-16 min kvadratkilometr ərazidə, - hansı ki, Ermənistan onu tamamilə yerlə-yeksan edib, - yeni həyat qurulur, özü də müasir, gözəl, rahat. Ona görə mənim idmançılara, idman ictimaiyyətinin nümayəndələrinə tövsiyəm odur ki, o bölgələrə və bütövlükdə digər bölgələrə də tez-tez getsinlər, orada həm görüşlər keçirsinlər, həm də ki, gənc idman istedadlarını seçsinlər. Çünki seleksiya işi, - indi idman mütəxəssisləri bunu yaxşı bilirlər, - əsas amildir.

Əziz dostlar, sizi uğurlar münasibətilə bir daha təbrik edirəm. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü gəlir, Yeni il gəlir. Bu bayramlar münasibətilə də sizi təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonra Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimi olub.

Dövlətimizin başçısı ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Natiq Bağırova, Rauf Bunyatəliyevə, Cavanşir Qurbanova və Sadıq Sadıqova Prezidentin fəxri fərmanlarını təqdim edib.

Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə Nəriman Abdullayev və Rövşən Umudov "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adları ilə təltif olunublar.

Prezident İlham Əliyev ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Zərqələm Abbasovaya, İqrar Cəfərova, Fərhad Əliyevə, Musa Mamedova, Nəsimi Musayevə, Aydın Məmmədova, Rəşad Rəsulluya, Tahir Tahirova və Vüqar Verdiyevə "Tərəqqi" medallarını təqdim edib.

Dövlətimizin başçısı 2024-cü ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə - Anna Skidan, Vüqar Əzimov, Aynur Rzayeva, Sərxan Əliyev, Hidayət Heydərov, Zelim Kotsoyev, Vladimir Şulikin, Əliabbas Rzazadə, Rövşən Hacıyev, Rəna Həsənova, Könül Mikayılova, Qaşım Maqomedov, Sabir Həsənov, Vadim Kutukov, Anar Süleymanov, Elgiz Əlizadə, Şahin Xudaverdiyev, Ceyhun Hüseynov, Anar Məmmədov, İmaməddin Xəlilov və Ərkan Sağdıç yeni mənzillərin orderlərini təqdim edib.

Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Faiq Qarayevə, Mirağa Qiyasova və Ramiz Tağıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək.

Sonra xatirə şəkilləri çəkdirilib.

---

## *Nümunəvi xidmət*

# Hərbi xidmət Vətənə sədaqətdir

Əsgər olub Vətənin keşiyində dayanmaq minlərlə gənc kimi Turqut Osmanlının da arzusu, istəyi olub. Təhsil aldığı orta məktəbdə intizamlı şagird kimi tanınıb. Vətənimizin tarixi keçmişinə, ədəbiyyatına, incəsənətinə böyük maraq göstərib. Vətənpərvərlik ruhunda formalaşıb.

Turqut Osmanlı uşaqlıq illərindən Ermənistanın Vətənimizə qarşı elan etmədən başladığı müharibənin dəhşətləri törədilən faciələr haqqında valideynlərindən, müəllimlərindən çox eşidib. Cəsur döyüşçülər haqqında yazılan məqalələri, kitabları maraqla oxuyub, sənədli filmlərə düşüncələrlə baxıb. Bəzən özünü də onların sırasında görüb.

Vətən müharibəsində məktəbli Turqut döyüşçülər sırasında olmağı arzulayıb. Müharibənin gedişini əsl vətənpərvərlər kimi izləyib. Qazanılan tarixi Zəfər onun da qədərsiz sevincinə dönüb. Döyüşçülərin hamısını qardaşı bilib...

Vətən müharibəsində şəhid olan qəhrəmanların anım günlərində həmişə ürəyinin hökmü ilə iştirak edib. Onda şəhidlərin ruhuna xitabən o da pıçıldayıb: "Sizin döyüş yolunuzu nümunəvi əsgər kimi davam etdirəcəyik".

O da hərbi xidmətə çağırılıb. Yaxınları, doğmaları onu hərbi xidmətə yola salıblar. Turqut Vətənə, xalqa sədaqətli və mətin oğulların davamçısı kimi xidmət edəcəyini onda da bildirib.



Komando hərbi hissəsində xidmətə başlayıb. Təlim müddətində hərbi xidmətin qayda-qanunlarına yaxından bələd olub. Hərbi Andı qəbul etdiyi günü isə həyatının ən yaddaqalan, unudulmaz günü hesab edir. Əsgər yoldaşları ilə birgə o da Vətənin müdafiəsində dayanıb. Turqut nümunəvi əsgər kimi tanınır. O, xidməti vəzifələrini layiqincə yerinə yetirir. Atıcı silahlardan bacarıqla istifadə etmək qabiliyyətinə malikdir.

Göstərilən etimadı həmişə doğruldan əsgər Turqut Osmanlı müddətli həqiqi hərbi xidmətini yüksək döyüş və mənəvi hazırlığa malik olan əsgər kimi davam etdirir. O, Azərbaycan əsgəri kimi şərəfli bir adı daşıdığından, dünyada qalib ordu kimi tanınan orduda xidmətindən qürur hissi keçirdiyini dedi:

- Qüdrətli bir xalqın, qalib ordusunun əsgəri olmaq şərəfini yaşamaq necə xoşdur. Əsgər yoldaşlarımla birgə Vətənimizin keşiyində ayıq-sayıq dayanmışıq. Şəhid qardaşlarımızın davamçıları kimi Vətənimizin ərazi bütövlüyünü, suverenliyini göz bəbəyimiz kimi qoruyuruq. Bu müqəddəs vəzifəni məsuliyyətlə yerinə yetiririk.

Amalları, məqsədləri həmişə bir olan Vətən müdafiəçilərinin sırasında mətinliklə xidmət edən Turqut Osmanlı gələcək arzusunu da Vətənə nümunəvi xidməti ilə reallaşdıracaq.

Komando hərbi hissəsində xidmət edən əsgər Turqut Osmanlı onu da bildirdi ki, Azərbaycan əsgəri Vətənə sədaqətin əsgəridi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Müzəffər Ali Baş Komandan



### Effektiv dövlət siyasəti və müasir siyasi lider obrazı

Ulu Öndərin təlatümlərdən, təhlükələrdən çıxararaq, qurub-yaratdığı və dövlət müstəqilliyini əbədi dönməz etdiyi müasir Azərbaycanın nüfuzunun dünyada daha da artması, Cənubi Qafqazda lider dövlətə çevrilərək, regionda sülhün, sabitliyin bərqərar edilməsində mühüm rol oynaması, respublikamızın siyasi və iqtisadi dayaqlarının möhkəmlənməsi, ərazi bütövlüyünü və təhlükəsizliyini qoruyan, müdafiəsinin təminatçısı olan ordumuzun ən güclü ordular sırasında yer alması məhz müdrik və uzaqgörən dövlət başçısı cənab İlham Əliyevin inamla davam etdirdiyi uğurlu xarici və daxili siyasətinin nəticəsidir.

İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı Prezident İlham Əliyevə öz dəstəyini göstərir. 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə xalq öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına vermişdir. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına 01.10.2003-cü il tarixli müraciətində demişdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

İlham Əliyev 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilib. Prezident seçkilərində seçicilərin 76 faizindən çoxu İlham Əliyevin lehinə səs verib. 2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 faiz səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. 2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə seçicilərin 84,54 faiz səsini qazanan İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə İlham Əliyev seçicilərin 86,02 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

### Zəfər seçkisi

2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Prezident seçkiləri Zəfər seçkisi idi. İlk dəfə olaraq müstəqil həyatımızda seçkilər ərazilərimizin hər bir yerində keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs vermişdir. Seçkilərdə seçici fəallığı 76,43 faiz olmuşdur. İlham Əliyev seçicilərin 92,12 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 14 fevral 2024-cü ildə Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev deyib: "Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar.... Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".

Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı xalqın qalib ruhunun güzgüsüdür. İqtisadi böhranlara, beynəlxalq təzyiqlərə və pandemiyanın yaratdığı çətinliklərə rəğmən dövlət başçısının nümayiş etdirdiyi yüksək peşəkarlıq və xalqa arxalanma siyasəti Azərbaycanda yaşanan ümumxalq birliyinin səbəbidir. Sonuncu prezident və parlament seçkilərindən sonra ölkəmizdə başlanan islahatlar yeni mərhələyə qədəm qoydu və bu gün də bu mütərəqqi proses Prezident İlham Əliyevin rəhbərliyi altında əzmlə davam etdirilir.

### Zəfəri reallığa çevirmiş effektiv ordu quruculuğu

Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf edən Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımıza Qələbəni bəxş etmiş müzəffər Orduya çevrilmişdir.

2003-cü ildən etibarən ordu quruculuğu məsələləri dövlət siyasətinin prioriteti kimi müəyyən olunmuşdur. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan ordusunu dünyanın ən güclü 50 ordusu sırasına yüksəltdi. Ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət ayrılıb. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

Prezident cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradılıb. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Ordumuzun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye kompleksi hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Silah və hərbi texnikaların satın alınması və hərbi məhsulların istehsalına dair bir sıra ölkələrlə müqavilələr imzalanaraq hərbi əməkdaşlıq əlaqələri genişləndirilib.

Ölkəmizin son illərdə dinamik iqtisadi inkişafı silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması dövlət rəhbərimizin ordu quruculuğunu daim prioritet məsələ kimi diqqətdə saxladığını təsdiq edir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksələrək, hərbi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirildi, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı.



Hər kəsə yaxşı məlumdur ki, rəşadətli ordumuz öz gücünü ilk dəfə 2016-cı ilin Aprel döyüşlərində sübut etdi. Aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Əbədiyaşar Komandan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 7 yanvar 1994-cü ildə həyata keçirilən uğurlu Horadiz əməliyyatından sonra Azərbaycan Ordusu dördgünlük Aprel döyüşlərində xalqımıza yenidən qələbə sevinci yaşatdı.

Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində də Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək, dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə də, Ələhiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin Azərbaycan-Ermənistan şərti dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulmuş döyüş tapşırığı yüksək səviyyədə icra olundu.

Ordu quruculuğu kimi geniş, əhatəli bir prosesi şərtləndirən amillərin hər birinə ayrılıqda və vəhdətdə xüsusi diqqət yetirilir. Ordunun döyüş qabiliyyətinin artırılmasında taktiki təlimlərin olduqca böyük əhəmiyyəti vardır. Ali Baş Komandanın tapşırığına əsasən, keçirilən irimiqyaslı təlimlər təsdiqlədi ki, ordumuz güclüdür, Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə qadirdir.

Vətənpərvər Azərbaycan əsgəri hər birimizin qüruru, fəxridir. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusunda bir nəfər də fərari olmadı. Yaralı hərbi qulluqçularımız hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq.

### "Dəmir yumruq"

Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə qazanaraq tarixi nailiyyətə imza atdı.

Müharibənin nəticəsində 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Düşmən ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı. Ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Prezident İlham Əliyev qələbədən sonrakı çıxışlarında demişdi: "Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik".

(Ardı 5-ci səhifədə)

# Türkiyənin Quru Qoşunları komandanı ölkəmizdə rəsmi səfərdədir





*Dekabrın 23-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Quru Qoşunları komandanı ordu generalı Selçuk Bayraktaroğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*



Müdafiə Nazirliyi xəbər verir ki, qardaş ölkənin nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edib, əklil və gül dəstələri qoyaraq xatirələrinə dərin hörmət və ehtiram nümayiş etdiriblər.

Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Zakir Həsənov türkiyəli qonaqları salamlayıb və onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Azərbaycan və Türkiyənin qədim tarixə və zəngin mədəniyyətə malik olduğunu qeyd edən nazir ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib. Qardaş ölkələrin dövlət başçılarının dostluq münasibətləri nəticəsində imzalanan Şuşa Bəyannaməsinin icrası ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsinin vacibliyi qeyd olunub.

Nazir regionda sülh və sabitliyin təmin edilməsi istiqamətində Azərbaycan və Türkiyə arasındakı strateji tərəfdaşlığın rolunu xüsusi vurğulayıb.

Səmimi qəbula və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən ordu generalı S.Bayraktaroğlu mütəmadi olaraq qarşılıqlı səfərlərin təşkili və görüşlərin keçirilməsinin ölkələrimiz arasında sarsılmaz dostluq və qardaşlıq əlaqələrinin təzahürü olduğunu qeyd edib. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının iki ordu arasında uyarlılığın təmin edilməsində mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Görüşdə hərbi, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev qardaş ölkənin nümayəndə heyəti ilə görüşüb.



Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə hər iki ölkənin hərbi qulluqçularının peşəkarlığının daha da artırılması və təcrübə mübadiləsi məqsədilə birgə təlimlərin keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb. Birgə hərbi əməkdaşlığın cari vəziyyəti və digər məsələlər müzakirə edilib.

Daha sonra Azərbaycan Respublikasının müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay ilə görüş keçirilib. Görüşdə Azərbaycan Ordusunun Türkiyə Respublikası Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər barədə ətraflı fikir mübadiləsi aparılıb.





# Azərbaycan Quru Qoşunları komandanı türkiyəli həmkarı ilə görüşüb

*Dekabrın 24-də Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-polkovnik Hikmət Mirzəyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Selçuk Bayraktaroğlu ilə görüşüb.*



Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Hər iki qardaş ölkənin hərbi qulluqçularının bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə keçirilən birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi vurğulanıb.

Görüş zamanı tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

## ANAMA: Ötən həftə 770,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən dekabrın 16-dan 22-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 104, tank əleyhinə 26 mina və 304 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 770,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Müzəffər Ali Baş Komandan

(Əvvəli 3-cü səhifədə)

Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr milli mətbuatımızın fəaliyyətinə istiqamət verdi. Müzəffər Ali Baş Komandanın müharibə ilə bağlı müsahibələri XXI əsr üçün yeni üslub, yeni model nitq strategiyası hesab edilə bilər. Müsahibələr ardıcıl, dünyanın ən müxtəlif ölkələrinin, müxtəlif kanalları vasitəsi ilə aparılırdı. Müsahibələri real mübarizə və silah üsuluna çevirən Azərbaycan Prezidenti bu müharibədə də qalib gəldi. Həmin nitqlərdə gerçəklikdən doğan konkretlik, qətiyyət, iradə əsaslı şəkildə yer alırdı. Müzəffər Ali Baş Komandan verdiyi müsahibələrlə münaqişə ilə bağlı dünyanın fikrini dəyişdirməyə müvəffəq olmuşdur.

20 il bundan əvvəl Prezident seçilmiş İlham Əliyev doğma xalqına müraciət edərək söz vermişdir ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək və Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq. Üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan 19 sentyabr 2023-cü ildə lokal xarakterli antiterror əməliyyatına başlamışdır. Antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Bu əməliyyatlar ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə başa çatmışdı. 15 oktyabr 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağını qaldırdıraraq sübut etmişdir ki, Prezident İlham Əliyevin sözü və əməli birdir.

Qələbələrimiz bütün regiona sülh və davamlı inkişaf imkanı qazandırmışdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində regionun beynəlxalq statusu dəyişmiş və region ölkələrinin inkişafı üçün yeni imkanlar açılmışdır. Münaqişənin həlli regionun təhlükəsizliyi və kommersiya cəlbediciliyi baxımından strateji əhəmiyyətə malikdir. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir.

### Qələbəmiz əbədiləşdirilir, müharibə iştirakçılarına yüksək diqqət göstərilir

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin təşəbbüsü ilə Vətən müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medalları təsis edilmişdir. Həmin medal və ordenlərin təsis olunması qələbənin əbədiləşdirilməsinin və müharibə iştirakçılarına göstərilən ali diqqətin təzahürüdür.

Həmçinin xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında 2020-ci il 3 dekabr tarixində Sərəncam imzalamış, 2021-ci ildə Hərbi Qənimətlər parkının və 2024-cü ildə Zəfər parkının açılışında iştirak etmişdir. "Mən hər zaman qazilərin yanında olacağam" deyən cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ehtiyacı olan bütün döyüşlərdə yaralananlara, şəhid ailələrinə dövlət tərəfindən lazımi köməklik göstərilməkdədir. Müharibə dövründə əlini, qolunu itirmiş müharibə iştirakçılarımız üçün ən müasir protezlər sifariş edilmişdir. İndiyədək 10 mindən artıq şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilmişdir. Müharibə əlillərinə 7 mindən artıq minik avtomaşını verilmişdir. Əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün yaradılmış "YAŞAT" Fondu tərəfindən indiyədək edilmiş ödənişlərin məbləği 86 milyondan artıq manat təşkil edir. Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər.



Şanlı qələbəmizin şərəfinə dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda möhtəşəm Zəfər Paradı keçirildi. Dövlətimizin başçısının 2018-ci ildə keçirilən paradda dediyi kimi, düşmənin ələ keçirilən silah-sursat və texnikası ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımız da Zəfər Paradında nümayiş etdirildi.

Bu gün isə Zəfər muzeyləri yaradılır. Azərbaycan xalqı tamamilə dağılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qurur. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri aparılır. Azad olunmuş bütün şəhərlərdə İşğal və Zəfər muzeyləri inşa ediləcək.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Ordusu haqqında səsləndirdiyi "Biz Silahlı Qüvvələr Gününü artıq müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik", "Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır", "Bunu da hər kəs bilsin, bu 44 gün ərzində əldə edilmiş Qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb", "Ordu quruculuğu bizim üçün prioritet məsələdir", "Bizim ordumuz bizim qürurumuzdur", "Güclü dövlətin güclü ordusu olmalıdır", "Biz bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq, güclü dövlət, yenilməz ordu və güclü iradə sahibi kimi", "Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi" fikirləri Azərbaycan xalqına qürur hissi yaşadır. Ən əsası da qalib ölkənin güclü Azərbaycan Ordusunun olması, ordumuzun varlığı düşmənlə yanaşı, bütün dünya dövlətlərinə göz dağıdır.

### Prezident İlham Əliyev sevincli günləri xalqı ilə bölüşür

24 dekabr Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin doğum günüdür.

Ad günlərində Prezident İlham Əliyev adətən sosial obyektlərin açılışında iştirak edir, məcburi köçkünlərlə və şəhid ailələri ilə görüşür. Bu cür əlamətdar günlərində Prezident şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, habelə yeni salınmış köçkün qəsəbələrində insanlarla görüşür. 50 illiyini məcburi köçkünlərlə bərabər Ağcabədidə qeyd edən Prezident, 60 illiyini də Qarabağda - Şuşada keçirib. 2022-ci il 24 dekabr tarixində cənab Prezident Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb. Sonuncu ad günündə isə Prezident İlham Əliyev Ağdama səfər edərək, bir sıra infrastruktur obyektlərinin açılışında iştirak etmiş və təməlini qoymuşdur.

Doğum gününüz mübarək, Müzəffər Ali Baş Komandan!

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Azərbaycanın Belarusdakı hərbi attaşelik aparatının nümayəndələri Polotsk Kadet Məktəbində olublar



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Belarus Respublikasındakı hərbi attaşelik aparatının nümayəndələri Polotsk Kadet Məktəbinin yaranmasının ildönümünə həsr olunmuş silsilə tədbirlərdə iştirak ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə MDB məkanında ən qədim kadet məktəbi sayılan Polotsk Kadet Məktəbinin tarixi haqqında iştirakçılara məlumat verilib, məktəbin məzunlarının faşizm işğalçılarına qarşı gedən döyüşlərdə nümayiş etdirdikləri şücaətlərdən danışılıb.

Qeyd olunub ki, Belarusun alman-faşist işğalından azad olunmasında 10 minədək azərbaycanlı iştirak edib. Həmvətənlərimizdən 102 nəfər partizan hərəkatının üzvü olub, 17 nəfər isə "Ştalaq 352" düşərgəsində əsir saxlanılıb. Belarus uğrunda gedən döyüşlərdə iştirak etmiş azərbaycanlılardan 11 nəfər Sovet İttifaqı Qəhrəmanı, 1 nəfər isə iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Tədbirdə çıxış edənlər Polotsk uğrunda gedən döyüşlərdə həlak olmuş azərbaycanlıların rayonun müxtəlif ərazilərində qardaşlıq məzarlarında dəfn olunduqlarını qeyd ediblər.



Həmin həmvətənlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə hərbi attaşelik aparatının nümayəndələri tərəfindən Polotsk Kadet Məktəbinin muzeyində Azərbaycan Ordusunun geyim formalarından ibarət guşə yaradılıb. Geyim formaları, rayon uğrunda qəhrəmancasına həlak olanlardan ən yüksək rütbəlinin - leytenant Vahabov Əziz Şükür oğlunun hərbi rütbəsi nəzərə alınaraq, "leytenant" hərbi rütbələri ilə təmsil olunub.

# Naxçıvan Hərbi Kollecinin Həmkarlar İttifaqının təsis yığıncağı keçirilib





*Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən kollecin Həmkarlar İttifaqının təsis yığıncağına həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin (BHİK) sədri Kərim Rzayev BHİK-in tarixi və fəaliyyəti haqqında geniş məlumat verib. Komitənin fəaliyyət göstərdiyi uzun illər ərzində Müdafiə Nazirliyində çalışan mülki işçilərin sosial-iqtisadi hüquq və maraqlarının müdafiəsinin həyata keçirilməsi istiqamətində görülən işlərdən danışıb. BHİK-in və onun üzv təşkilatlarının hər zaman olduğu kimi 44 günlük Vətən müharibəsi dövründə də ordumuzun yanında olduğunu, hərbi qulluqçularımıza, həkimlərimizə, eyni zamanda, arxa cəbhədə fəaliyyət göstərən vətəndaşlarımıza maddi və mənəvi cəhətdən dəstək vermək üçün bir sıra tədbirlər həyata keçirdiyini vurğulayıb. Azərbaycan Ordusunun təhsil sistemindən danışan komitə sədri qeyd edib ki, bugün hərbi təhsil sistemi ordunun inkişafını müəyyən edən strateji vəzifə kimi mühüm rol oynayır. "Vətən müharibəsindən sonra ölkəmizin müdafiə potensialının gücləndirilməsinə və hərbi qüdrətinin artırılmasına xidmət edən ordu quruculuğu siyasəti yeni mərhələyə qədəm qoyub. Bu xüsusda diqqətçəkən məqamlardan ən mühümü məhz müharibənin, döyüş təcrübəsinin, eyni zamanda, qardaş Türkiyə Respublikasının hərbi sistemi əsas götürülərək geniş islahatların reallaşdırılmasıdır. Ötən il dekabrın 14-də Prezident cənab İlham Əliyevin müvafiq Fərmanına əsasən, ölkənin üç şəhərində - Bakı, Gəncə və Naxçıvanda xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinin yaradılması da ordu quruculuğu, peşəkar hərbçi kadrların hazırlanması istiqamətində yeni perspektivlər vəd edən sistemli tədbirlərin tərkib hissəsidir. Bu Fərman hərbi kadr bazamızın daha da genişlənməsində mühüm əhəmiyyətə malikdir. Yeni hərbi kolleclərin yaradılması gənclərin hərbi vətənpərvərlik ruhunun daha da yüksəlməsinə müsbət təsir göstərəcək ki, bu da Vətənimizin etibarlı müdafiəsi baxımından çox vacibdir. Çünki Vətəni qorumaq hər bir vətəndaşın borcudur. Biz bu Vətəndə yaşayırıq və təhlükəsizliyini, stabilliyini qorumalıyıq. Bunun üçün də vacibdir ki, bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də bu kimi addımlar atılsın və gənclər öz arzularına uyğun ixtisaslar üzrə biliklərə yiyələnsinlər. Bu sahədə gəncləri stimullaşdıracaq məktəblərin, hərbi təmayüllü təhsil ocaqlarının olması vacibdir. Kollecin pedaqoji heyətinə işlərində uğurlar və yeni-yeni nailiyyətlər arzulayıram", - deyə komitə sədri bildirib.



Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşkilati işlər üzrə sədr müavini Şəhriyar Əzizbəyli çıxış edərək gündəlikdə duran məsələləri diqqətə çatdırıb. Komitə rəhbərliyinin tapşırıq və tövsiyələrinin reallaşdırılması istiqamətində görülən işlər, əmək fəaliyyətlərinin müasir formada həyata keçirilməsi və nəzərdə tutulan gələcək planları haqqında məlumat verib. Qeyd edib ki, komitənin əsas vəzifəsi ittifaq üzvlərinin sosial-iqtisadi mənafelərini və qanuni hüquqlarını müdafiə etmək, kollektiv müqavilələrin vaxtında bağlanması və onun müddəalarının yerinə yetirilməsinə ciddi nəzarət etmək, əmək haqqının vaxtında ödənilməsinə nail olmaq, əməyin mühafizəsi, əməkdaşları təhlükəsiz iş yeri ilə təmin etmək, sağlamlıqlarının qayğısına qalmaq, onları maarifləndirmək və asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir. Sədr müavini, həmçinin komitənin təşkilati məsələləri, yeni yaradılan təşkilatlar, əməyin mühafizəsi, işəgötürənlə ilk təşkilatlar arasında bağlanmış kollektiv müqavilələrin vəziyyəti və il ərzində verilmiş yollayışların vəziyyəti ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonra BHİK-in son ildə gördüyü işləri əhatə edən videoçarx nümayiş olunub.

Daha sonra yığıncaqda səsvermə keçirilərək Naxçıvan Hərbi Kollecinin həmkarlar komitəsinin sədri seçilib.

Sonda BHİK-in sədri Kərim Rzayev və digər qonaqlar Naxçıvan Hərbi Kollecinin Xatirə kitabına ürək sözlərini qeyd ediblər.

**"Azərbaycan Ordusu"**

# "100 ilin qəhrəmanları"




Xalqımıza qürur, torpaqlarımıza doğma nəfəs gətirən Zəfərin qazanılmasından 4 il ötür. Öz qanlarıyla üçrəngli bayrağı Vətən göylərinə çəkən şəhidlər tarix yazdılar. Gənc və gələcək nəsillərə örnək ömür yolu miras qoydular. İndi bu mirasın izi ilə yetişir yeni nəsil. Bu günümüz də, gələcəyimiz də etibarlı əllərdədir. Bir qarış da olsun düşmənə torpaq verməyəcək qədər güclü ordumuz, əzmkar gəncliyimiz və bu irsi təbliğ edən ziyalı ordumuz var. Yazılan hər bir yazı, nəşr olunan hər bir kitab qəhrəmanların döyüş yolunu gələcəyə ötürən salnamədir.

Bu günlərdə təqdimatı keçirilən "Şərq qapısı" qəzetinin hazırladığı "100 ilin qəhrəmanları" adlı kitab Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilən Tədbirlər Planına uyğun olaraq işıq üzü görüb.

44 günlük Vətən müharibəsində Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin məzunları olmuş zabitlər, həmçinin Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri də şücaət göstərmiş, adlarını şanlı Zəfər tarixinin səhifələrinə yazdırmışdılar. Hər birinin fərqli həyat hekayəsi olsa da, məqsədləri eyni olmuşdur: seçdikləri peşəyə sadiqlik, Vətənə məhəbbət və torpaqların işğaldan azad olunmasında son damla qanınadək döyüşmək. Bir amal uğrunda döyüşə atılan Vətən oğulları gözlənilən qələbənin əldə olunmasında pay sahibi olmuş, kimisi şanlı bayrağa bükülərək, kimisi sinəsi medallarla geri qayıtmışdır. Muxtar Respublikanın bütün bölgələrində şəhidlərin uyuduğu xiyabanlar, şəhid evləri ziyarətgaha çevrilmişdir.



"Şərq qapısı" qəzetinin "100 ilin qəhrəmanları" layihəsi çərçivəsində ərsəyə gələn kitabda şanlı Vətən müharibəsində və sonrakı hərbi əməliyyatlarda canından keçib şəhidlik zirvəsinə ucalan igidlərimizin valideynlərinin (Naxçıvan Muxtar Respublikasında yaşayan) övladları haqqında xatirələri yer alıb. 44 cümləyə sığışdırılan hər bir xatirə şəhidlərimizə böyük sevgi və ehtiramın ifadəsidir. 138 şəhid barəsində yazılan hər bir yazıda anaların ürəyinin səsi duyulur. Cəsur oğullar böyüdən anaların fikirləri insana qürur hissi, ali duyğular bəxş edir. "Şəhadətə yüksələn oğlumun ruhu şaddır", "Vətənə qırılmaz tellərlə bağlı idi", "Gələcək nəsil üçün misilsiz qəhrəmanlıq örnəyi", "Şərəfli adını tarixə həkk edən oğul", "Ömrünü Vətənin azadlığı naminə fəda etdi" kimi başlıqlarla verilən hər bir yazı şəhidlərin nə qədər müqəddəs amal uğrunda döyüşdüklərini, ən ali məqama yetişdiklərini göstərir. Gənc nəslə cəsarət, əzm, döyüşkənlik ruhu aşılayır.

"100 ilin qəhrəmanları" layihəsinin rəhbəri "Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimova, icraçısı Naxçıvan Dövlət Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, Turan Məmmədlidir.

Kitabda şəhidlərin fotoları ilə yanaşı, onları vətənpərvər ruhda böyüdən valideynlərinin də fotoları yer alıb. Kitab vətənpərvərliyi təbliğ edən, şəhidlik məqamına ucalan igidlərin şücaətlərini əks etdirən dəyərli mənbə, Muxtar Respublikanın 100 illiyinə layiqli töhfədir.

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Şəhidlərimizin xatirəsi daima uca tutulur



*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Şəhidlər ölməz, Vətən bölünməz" adlı tədbirlər silsiləsindən şəhid mayor Ramil Ağayevin doğum günü qeyd olundu. Anım tədbirində Müdafiə Nazirliyinin hərbi qulluqçuları, Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin Şəhid ailələri və qadınlarla iş sektorunun əməkdaşları, şəhidin ailə üzvləri, yaxınları, kursant və döyüş yoldaşları, bir qrup şəhid ailəsi, veteranlar, ictimaiyyətin nümayəndələri və başqa qonaqlar iştirak etdilər.*

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra Azərbaycan Ordusunun şəhid mayoru Ramil Ağayevin şərəfli döyüş və ömür yolundan bəhs edən sənədli film tədbir iştirakçılarına nümayiş olundu.

Qeyd edək ki, Ağayev Ramil Mərdan oğlu 20 dekabr 1984-cü ildə Lerik rayonunda anadan olub. Ürəkdən bağlandığı hərb sənətinin yollarında qürurla addımlayıb. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində Füzulinin, Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə mayor Ramil Ağayev igidlik, rəşadət göstərib. 8 oktyabrda şəhidlik məqamına yüksəlib. Doğulduğu Lerik rayonunda torpağa tapşırılıb. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəfli və örnək sayılır. Belə şərəfli ömür sahiblərindəndir Ramil də. Yaşasaydı, bu gün qırx yaşını doğmalarını, dostlarını ətrafına toplayıb qeyd edəcəkdi. Onun iki qız övladı - Aysu və Zəhra Vətənimizə, xalqımıza əmanət qalıb. Şəhidlər ölmür, onlar xalqımızın qürur tarixində əbədi yaşayanlardır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə mayor Ramil Ağayev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeninə, "İgidliyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medallarına layiq görülüb. Sumqayıt şəhərində küçələrdən birinə şəhid mayor Ramil Ağayevin adı verilib.

Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin Şəhid ailələri və qadınlarla iş sektorunun müdiri dövlət qulluqçusu Zümrüd Səmədova çıxışında şəhid analarına və həyat yoldaşlarına müraciət edərək vurğuladı ki, siz həmişə başınızı uca tutun, fəxr edin ki, sizin övladlarınızın, həyat yoldaşlarınızın fədakarlıqları sayəsində 30 illik işğala son qoyulub, torpaqlarımız erməni işğalçılarından azad olunub. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə üçrəngli dövlət bayrağımız əzəmətlə dalğalanır. Ramil kimi Vətənimizin igid, cəsur oğulları düşmənə göz dağı oldular, qısa, lakin şərəfli bir ömür yaşadılar. Onların bu ömrü və döyüş yolu gələcək nəsillərə nümunədir.



Anım mərasimi şəhidin qızları Aysu və Zəhranın çıxışları ilə davam etdi. Onlar şəhid övladı adı ilə qürur duyduqlarını, fəxrlə bu adı daşıdıqlarını dedilər. Aysu atası ilə bağlı xatirələrini danışıb kövrəldi. Zəhra atasına həsr etdiyi şeiri söylədi.

Çıxış edənlər ehtiyatda olan polkovnik Hikmət Ağayev, iki şəhid atası Elman Məmmədov, əməkdar jurnalist İdris Şükürlü, Səngər TV-nin rəhbəri Aqil Alışov 44 günlük Vətən müharibəsi zamanı mərdlik, qəhrəmanlıq göstərən oğulların vətənpərvərliyindən, peşəkarlıqlarından və bu igidlərin illərlə o anın həsrətini çəkdiyini dedilər. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması ilə şəhidlərimizin qisasının alındığı və bununla da düşmənin tamamilə ərazilərimizdən qovulduğunu qeyd etdilər. Vətən uğrunda canından keçən oğullarımızın təbliğ edilməsi və onların fədakarlıqlarını gələcək nəsillərə çatdırmaq üçün belə anım tədbirlərinin mütəmadi olaraq keçirilməsinin vacibliyini vurğuladılar.



Daha sonra şəhid zabitin anası Şərafət Ağayeva çıxış edərək, göstərilən yüksək diqqət və qayğıya, övladının adının daima uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

Sonda H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs ansamblının solistlərinin təqdimatında vətənpərvərliyi, Böyük Zəfərimizi tərənnüm edən musiqilər səsləndirildi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

---



***İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun tarixi Zəfəri ilə başa çatdı. Dövlət də, xalq da döyüşlərdə şəhid olanların xatirəsini həmişə ehtiramla yad edir. Şəhid hərbi qulluqçuların anım tədbirləri də bu ehtiramın təzahürüdür. Belə bir anım tədbiri Şəmkirdə keçirildi. Şəhid Nurlan Həsənovun xatirəsi anıldı. Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.***

Tədbirdə Nurlan Həsənovun Vətənimizə, xalqımıza məhəbbət ruhunda formalaşdığı, dövlətimizə sədaqətli gənc kimi böyüdüyü bildirildi. Qeyd olundu ki, Nurlan hələ uşaqlıq illərindən hərbçi peşəsinə böyük maraq göstərib. Dahi şairimiz Məhəmməd Füzulinin adını daşıyan orta məktəbdə təhsil alıb. Mədəni-kütləvi tədbirlərdə fəal iştirak edib. Ordu sıralarında xidmət edən atası Eldar Həsənovun xatirələrini, söhbətlərini həmişə diqqətlə dinləyib. Atası sabiq SSRİ silahlı qüvvələrində xidmətdə olub, milli ordumuz yaranan kimi xidmətini öz ordumuzda davam etdirib. Vətən torpaqlarının müdafiəsində yaxından iştirak edib. Həmişə Nurlana keçdiyi döyüş yolundan, xidmətindən danışıb. Nurlan da atası kimi Vətənə, xalqa sədaqətlə xidmət edəcəyini bildirib.

Orta məktəb illərində idmana böyük maraq göstərib. Əlbəyaxa döyüş növü üzrə keçirilən yarışlarda həmişə fərqlənib. Rayon və respublika miqyaslı yarışlarda mükafata layiq yerlər tutub, medallara, fəxri fərmanlara layiq görülüb.

2001-ci ilin yanvarında hərbi xidmətə çağırılıb, "N" hərbi hissəsində təlim keçdiyi müddətdə vətənsevər əsgər kimi tanınıb. Atıcı silahlardan məharətlə istifadə qaydalarına yiyələnib. Xidmətini ön xətdə yerləşən hərbi hissədə davam etdirib. Vətənin sadiq müdafiəçisi kimi döyüş tapşırıqlarını məsuliyyətlə yerinə yetirib, komandirlərin etimadını doğruldub. Xidmət zamanı təxribat törədən düşmənə qarşı igidliklə döyüşən Nurlan Həsənov torpaqlarımızın müdafiəsi zamanı şəhid olub. Şəmkirdə Şəhidlər xiyabanında dəfn olunub. Onun xatirəsi heç vaxt unudulmayacaq.

Anım tədbirində "Azərbaycan Bayrağı" ordenli XTQ-nin kapitanı şəhid Ruslan Qəhrəmanovun atası, Qarabağ müharibəsi əlili Mehman Qəhrəmanov Vətən müharibəsində xalqla ordunun birliyinin yenilməzliyindən, həmrəyliyindən və Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharətindən danışdılar. Digər çıxış edənlər dövlət rəhbərliyinə şəhid ailələrinə və döyüşlərdə yaralananlara göstərilən diqqət və qayğıya görə minnətdarlıq ifadə etdilər.

Tədbir iştirakçıları Şəhidlər xiyabanını ziyarət edərək şəhid məzarlarına güllər düzərək onların xatirəsini bir daha yad etdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

Könlüm şeir istəyir

# Şeir sevgi deməkdi

***Azərbaycan poeziyası duyğuları, düşüncələri şeirləşdirməyə qadirliyi ilə dünyəvi poeziyadır, bəşəri poeziyadır. Bu poeziya "mehrabı uca göylər olan" sevginin də carçısıdı, təbiət gözəlliklərinə aludəliyin də, böyük şəxsiyyətlərə ehtiramı ifadə edir.***

***Azərbaycanın son illərdə beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi də, iqtisadi qüdrətinin artması da, ərazilərinin işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün tam bərpa olunması, İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi dünya ictimaiyyətinə müzəffər sərkərdə kimi tanıtdı. Belə tanınma şairlərin düşüncələrinin şeiriyyətinə döndü. Bu şeirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi ehtiramın poetik ifadəsidir...***

"Azərbaycan Ordusu"

*Nəriman Həsənzadə*

### Yaşa sən

Cənab Ali Baş Komandan, bu, tarixi kəlam oldu,
Şəhidlərin məzarına şanlı bir ehtiram oldu.
Azərbaycan nəfəs aldı, ürək bir az aram oldu,
Ulu Tanrım çox görməsin bu torpağa, daşa səni.
Kürsü - açıq səngəriydi, fəqət "nida işarəsi!"
Düz hədəfə gedib dəyən sonuncu bir top gülləsi.
Qulağımda Xan əminin bir Qarabağ zəngulәsi,
Eşidirdi sən gəzdiyin Cıdır düzü, Şuşa səni!
Vətənimin şərəfini qoruyursan, qoru belə,
Vətən deyir: Vətən oğlu, düz belədir, doğru belə.
Canımızdan belə çıxır, çəkdiyimiz ağrı belə,
Yaşa sevən ürəklərdə, bu ürəklə yaşa səni.
Qoy ədalət zəfər çalsın, xeyir çıxsın qabağına,
Yaşlı yollar yolçususan, daş dəyməsin ayağına.
Biz and içdik bizim qalib Azərbaycan bayrağına,
Ucaltdığın bayraq kimi uca görək, uca səni.
Qanımızda, canımızda bir istiqlal nəğməsi var,
Qaçqınların, köçkünlərin fəryadı var, naləsi var.
Qarabağda düşmənlərin min qəsdi var, qərəzi var,
Mən tapşırdım bu tarixdə tarixi yaddaşa səni.
Yurdumuzu yağmalayan qaniçəndi, həramidi,
Nərə çəkib, qılınc çalmaq qəhrəmanlıq məramıdı.
Oğulların hünər yolu - Ataların davamıdı,
Zaman özü alqışlayır, mərd atanla qoşa səni.

*Fikrət QOCA*

### İlham Heydər oğludu!

O, xalqın ümididir,
Sabaha inamıdır.
Yanında divanı da
Haqq-ədalət anıdır.
O, hər kəsin dostudu,
Xalqın qəhrəmanıdır.
Hər kəsin prezidenti
İlham Heydər oğludu!
Ulu Öndər oğludu!
Yolunda paşinyanlar
Paş ol - o yan! oldular.
Payını alıb sonra da
Başını yonan oldular.
İlhamlı qəhrəmanlar
Ondan qisas aldılar.
Hər kəsin prezidenti
İlham Heydər oğludu!
Ulu Öndər oğludu!

Siyasi şahmatçılar,
Tez imdada çatdılar.
Toplarını qurdular,
Atdılar ha - atdılar.
Aldılar cavabların
Paşinyanı satdılar.
Bəzi hələ "mat"dılar
Gördü qarşıda duran
İlham Heydər oğludu!
Yolu Heydər yoludu!
Ulu Öndər oğludu!

Bu zəfər, qəhrəmanlıq,
Yer üzünə yayıldı
Dünyada yatmışların
Bir çoxu da ayıldı.
Uzaq, yaxın çoxları
Oyundan payın aldı.
Bir çoxu da bayıldı...
Hər kəsin prezidenti
İlham Heydər oğludu!
Yolu Öndər yoludu!
Ulu Öndər oğludu!

*Salam Sarvan*

### Doğma adam, mərd adam!

Yaralı əsgərə şəfa hissiylə uzatdığın əlinə,
qürur uğrunda hazır olduğun ölümə
alnımı söykəyirəm.
Duruşundakı qətiyyətə həm də şəhid qardaşlarına görə
qarışan qəm yandırır adamı.
Amma axı gözəldi:
torpağın ən şirin vaxtında elə ölümlər var ki,
yaşadığına görə utandırır adamı.
Amma axı neyləməli:
Yer üzündə heç zaman sülh olmayıb,
sülh, olsa-olsa, əbədi müharibənin arxa cəbhəsidi.
Hətta zərif güllərin savaşdığı dünyada
quşların səsi də güllə səsidi.
Amma axı neyləməli:
bir gün daşıb-tökülməliydi yerə
illər boyu boğrımızdan axan qan...
Can, Cənab Ali Baş Komandan!
İndi hamıdan dərin sən duyursan bu dərdi,
hamıdan aydın sən eşidirsən tarixin bu pıçıltısını:
Vətən sevinc deyil, Vətən kədərdi.
Bir gün bu qaçan itlərin kəsiləcək hürüşü,
Bu əllərdən izi-tozu itəcək...
Sənin yumruğunun bir işarəsiylə qucacağıq torpağı
qollarımızın arasından bir qucaq
qan-qırmızı qızılgül bitəcək.
İçində üsyan və dərd adam,
doğma adam, mərd adam!

*Rəşid HÜSEYNOV*

### Ali Baş Komandanım

Dövran - ruhumuzundu,
Bayraqlaşıb zamanım.
Tarix olan hər anım.
Zəfər bizim Zəfərdi,
Ali Baş Komandanım!

Bu yol böyük məhəbbət,
Bu yol - əhdə sədaqət,
Dünənlərdən dikələn
Bir dəyanət, qətiyyət,
Zamanı belə yorub
Mənim Azərbaycanım,
Ali Baş Komandanım!

Bu xalqın, bu millətin
Hər yolu səhər oldu,
Qaranlıqlar çəkildi,
Bir nurlu səhər oldu;
Daha gözəl gələcək
Bundan sonra zamanım,
Ali Baş Komandanım!

## Kursantımız Respublika çempionu olub



Milli Müdafiə Universitetinin nəzdində olan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 1-ci kursunun kursantı Əmrahov Adəm Elsevər oğlu Alpaqut idman növü üzrə keçirilən Respublika çempionatının qalibi olub. Hərbi liseyin rəisi Vətən Müharibəsi Qəhrəmanı polkovnik Anar Mirzəyev onu təbrik edərək gələcək yarışlarda da bol uğurlar arzulayıb.

"Azərbaycan Ordusu"

## "Ordu" idman klubu Basketbol Liqasında növbəti dəfə qələbə qazanıb





Dekabrın 22-də Gəncə idman sarayında davam edən yarışlar çərçivəsində "Ordu" idman klubunun yığması "Gəncə" komandası ilə görüşüb.

Gərgin keçən qarşılaşma 2 xal fərqlə "Ordu" klubunun üstünlüyü ilə sona çatıb.

Yekun nəticələrə görə "Ordu" komandası 79:77 xal hesabı ilə qalib gəlib.

"Azərbaycan Ordusu"

## Dövlət qurumları arasında III minifutbol turniri keçirilir

Bakıda Gənclər və İdman Nazirliyi, AFFA və Azərbaycan Minifutbol Federasiyasının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında III minifutbol turniri keçirilir.

39 komandanın iştirak etdiyi turnirdə Müdafiə Nazirliyinin komandası da mübarizə aparır. "C" qrupunda yer alan komandamız ilk iki oyununda Dövlət Reklam Agentliyinin komandasına 4:3, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin komandasına isə 4:1 hesabı ilə qalib gəlib.

Müdafiə Nazirliyinin komandası növbəti oyununu 2025-ci il yanvarın 12-də Elm və Təhsil Nazirliyinin komandasına qarşı keçirəcək.

"Azərbaycan Ordusu"



Hacıyev Maarif Qəzənfər oğluna verilmiş A № 470340 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 792
Nüsxə 4650